# Gəncəlilər və samuxlular Ulu Öndərin anım gününü qeyd ediblər

Xalqımız 12 dekabrı Ulu Öndər Heydər Əliyevin anım günü kimi böyük el məhəbbəti, minnətdarlıq hissi ilə qeyd edir. Tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyətin, qüdrətli siyasi xadimin həyat və fəaliyyəti hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilmişdir.

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Heydər Əliyevin həyat yolu yüksək insani-əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirən nümunəvi məktəbdir. Onun ölkəmizə rəhbərlik etdiyi illər tariximizə intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi daxil olub.

Dünən Gəncənin mərkəzi meydanında böyük izdiham var idi. Gəncəlilər anım gününü qeyd etmək üçün Ulu Öndərin abidəsi önünə toplaşmışdılar. Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki baş konsulu Kaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov və başqaları Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzmüşlər. Sonra şəhər sakinləri abidəni ziyarət edərək ehtiramlarını bildirmişlər.





* * *

Samuxda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin anım günü qeyd olunmuşdur.

İştirakçılar öncə Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzmüş, xatirəsini ehtiramla yad etmişlər. Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev Heydər Əliyevin Azərbaycan tarixindəki rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğundakı fəaliyyətindən danışmış və bildirmişdir ki, onun başladığı işləri bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Odur ki, vətənini, xalqını sonsuz məhəbbətlə sevən, qətiyyəti, müdrikliyi ilə milyonlarla insanı öz ətrafında birləşdirməyi bacaran Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

Sonra iştirakçılar Ziyadlı kəndində - Samux-Kür yolunda ağacəkmə aksiyası keçirmişlər. Aksiyada rayonun iqlim şəraitinə uyğun olan 300-ə yaxın həmişəyaşıl ağac əkilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 13 dekabr (№ 263).- S.2.